TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
__________ E.M.Ağayev
25 dekabr 2024-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**OKSOLİN MƏLHƏMİ** yerli istifadə üçün məlhəm
OXOLIN OINMENT

**Beynəlxalq patentləşdirilməmiş adı:** Dioxotetrahydroxytetrahydronaphtaline

**Tərkibi**
*Təsiredici maddə:* 1 q məlhəmin tərkibində 2,5 mq oksolin vardır.
*Köməkçi maddələr:* mineral yağ, ağ yumşaq parafin.

**Təsviri**
Ağ rəngdən sarı rəngə qədər məlhəmdir. Saxlanma müddəti ərzində çəhrayı çaların yaranması mümkündür.

**Farmakoterapevtik qrupu**
Öskürək və soyuqdəymə xəstəlikləri zamanı istifadə edilən vasitələr. Virus əleyhinə digər dərman vasitələri.
**ATC kodu:** R05X.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Dərman vasitəsi yerli istifadəsi zamanı qrip viruslarına və adenoviruslara virulisid təsir göstərir.
***Farmakokinetikası***
Qrip virusunun (əsasən A2 tipli) hüceyrə membranının səthilə birləşmə sahəsini blokada edir, virusun hüceyrəyə nüfuz etməsinin qarşısını alır.

**İstifadəsinə göstərişlər**
Epidemiya zamanı qripin fərdi profilaktikası;
viruslu rinitlərinin müalicəsi.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Məlhəm gözün selikli qişasına istifadə üçün nəzərdə tutulmamışdır.
Dərman vasitəsini zədələnmiş dəridə istifadə etmək olmaz.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Burun boşluğunun selikli qişasının mümkün quruluğuna görə preparatı intranazal istifadə üçün adrenomimetik vasitələrlə eyni vaxtda ehtiyatla istifadə etmək məsləhət görülür.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatı, yalnız o zaman ehtiyatla istifadə etmək olar ki, preparatın istifadəsindən gözlənilən fayda dölə olan potensial riskdən üstün olsun.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Oksolin məlhəminin avtonəqliyyat idarə etmək və digər mexanizmlərlə işləmək qabiliyyətinə təsiri barədə məlumat yoxdur.

**İstifadə qaydası və dozası**
Yerli istifadə edilir.
Viruslu rinitin müalicəsi üçün 3-4 gün ərzində sutkada 2-3 dəfə burunun selikli qişasına çəkilir.
Epidemiya zamanı qripin fərdi profilaktikası üçün hər gün səhər və axşam burnun selikli qişasına, eləcə də sutka ərzində qripli xəstə ilə mümkün kontaktdan bilavasitə əvvəl sürtmək məsləhət görülür.
Uşaqlar
Oksolinin uşaqlarda təhlükəsizliyi və effektivliyi üzrə tədqiqatlar aparılmamışdır.

**Əlavə təsirləri**
Məlhəmin istifadə edildiyi nahiyədə yanma müşahidə edilə bilər ki, bu da tez aradan qalxır; burundan bol ifrazat; selikli qişanın göy rəngə boyanması. Hiperhəssaslığın inkişafı mümkündür.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması halları məlum deyil.
*Simptomları*
Burnun elikli qişasında yanma hissi və rinoreya mümkündür.
*Müalicəsi*
Məlhəmin istifadəsini dayandırmaq, preparatın qalığını ılıq su ilə yumaq.

**Buraxılış forması**
10 q məlhəm tubda. 1 tub içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
2-8°C temperaturda, orijinal qutusunda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**
Ternopharm LTD, Ukraine.
4 Fabrychna Street, Ternopil, Ukraine.
Tel.:/Faks: (0352) 521-444.
http://www.ternopharm.com.ua